

*Tural Adışirin*

**1990-cı il Şəki rayonunun Oxud kəndində anadan olub. Şeirləri Dünya Gənc Türk Yazarlar Birliyinin "Bölgələrdən səslər" toplusunda, "Ədəbiyyat qəzeti"ndə, "525"də," Kaspi" qəzetində dərc edilib. AYB-nin nəzdində fəaliyyət göstərən "Gənc ədiblər məktəbi II"nin müdavimidir. Dünya Gənc Türk Yazarlar Birliyinin üzvüdür.**

## MƏNİ SEVİRSƏNSƏ

Məni sevirsənsə bir dəniz ol ki,
Sahili, səması çox geniş olsun.
Yalçın qayalarda elə iz ol ki,
Ora yad ayağı dəyməmiş olsun.

Məni sevirsənsə yağışa bənzə,
İslat yay günləri yaylaqda məni.
Gah təzə bahara, gah qışa bənzə,
Nə günəş yandırsın, nə şaxta məni.

Məni sevirsənsə bir çinar ol sən,
Saçların tökülsün sinəmə tel-tel.
Bağda təzə qönçə, dağda qar ol sən,
Səcdənə mən gəlim günəşdən əvvəl.

Məni sevirsənsə küləyə bənzə,
Dağıt üstümüzdən çəni, dumanı.
Sən mənim sinəmdə bir neyə bənzə,
Nəğməsi bürüsün düzü-dünyanı.

Məni sevirsənsə bir şimşək ol sən,
İşıqlat könlümü bir anlıq mənim.
Bu aysız, ulduzsuz göydə tək ol sən,
Almasın üstümü qaranlıq mənim.

Məni sevirsənsə bahar ol, ey gül,
Dan yeli, sübh şehi qoy mənim olsun.
Sinəndə döyünən o zərif könül,
Qoy mənim əbədi vətənim olsun.

## TƏBİƏT

Baharda dünyanın toyu başlanar,
Bir yaşıl sevgiylə gələr təbiət.
Hər çəmən bir təzə gözəllik gəzər,
Nurunu çöllərə ələr təbiət.

Bulağa gedərəm qızlar söz eylər,
Yamaclar arxamca baxıb göz eylər,
Yaşmaqlı gəlinə dönər quzeylər,
Büllur bulaqlarda gülər təbiət.

Keçərəm dağların göy yaxasından,
Gözlərim mürgülər gül qoxusundan,
Qayalar ayılar qış yuxusundan,
Yolları çiçəyə bələr təbiət.

Əriyər zirvədə şimşək qorxusu,
Gül açar ellərin qönçə arzusu,
Bir gül qoparmağa qorxdum doğrusu,
Mən elə bildim ki, bilər təbiət.

## YOXDU

Bu sevgi nə yaman azardı, Allah,
Tutuldun, dərmanı-davası yoxdu.
O kəslər dünyanın bəxtəvəridir,
Başında məhəbbət havası yoxdu.

İndiki işlərin üzüyoladı,
Bəs niyə qəlbimi qana buladın,
Ürəyin alınmaz, möhkəm qaladı,
Girmişəm, bayıra çıxası yoxdu.

Ağrısı gözündən çıxır adamın,
İstisi yandırıb-yaxır adamı,
Ürəyin hökmünə hazırdı hamı,
Çoxdakı sonradan vəfası yoxdu.

Sənə ümidim var, bu mənim bəsim,
Sevənlər eşidir ürəyin səsin,
Hər gündə birinə vurulan kəsin,
Bir yerdə binəsi, yuvası yoxdu.

Qəmlə qidalanan könül qəm doğar,
Gəlsən itər sinəmdəki ağrılar,
Sənə verilməli bir ürəyim var,
Neyləyim, bundan da bahası yoxdu.

## ÖMRÜMƏ HƏSRƏTİN KÖÇÜR

Boğa bilməyirəm acı qəhəri,
Solmuş ümidimi biçib gedirsən.
Mənə söz vermişdin bir yaz səhəri,
İndi başqa evə köçüb gedirsən.

Kövrək duyğulardı qəlbimə dolan,
Könlümü sirdaş da ala bilməyir.
Niyə ürəyimin sahibi olan,
Evimin sahibi ola bilməyir.

Bir uşaq kimiydim,gücsüzdüm bayaq,
Bu necə qəzəbdi sinəmdə dindi.
Gözünü qan tutmuş bir dəli sayaq,
Toyun qabağını kəsimmi indi?

Kaş bütün sevənlər mənimtək sevə,
Nisgil var ürəkdən çox çətin köçür.
Sən gəlin köçürsən başqa bir evə,
Mənimsə ömrümə həsrətin köçür.